## Mübariz İbrahimov – 35

# İntiqamın Mübariz zirvəsi

**Bu gün öz qeyri-adi rəşadəti ilə doğma Qarabağın qaytarılmasına ümid və inamımızı artırmış ölməz gizirimiz, Milli Qəhrəman Mübariz İbrahimovun 35 yaşı tamam olur. 1988-ci il fevralın 7-də Biləsuvarın Əliabad kəndində dünyaya göz açmış, 2010-cu il iyunun 19-da Tərtərin Çaylı kəndi ərazisində ermənilərlə təkbaşına döyüşə atılaraq onları çoxsaylı itkilərə məruz qoyaraq şəhid olmuş Mübariz öz hünəri ilə xalqımızın mübarizə əzminə yeni ruh vermişdir.**



Ondan sonra 2016-cı ilin məlum Aprel döyüşləri, keçilməz “Ohanyan səddi”nin yarılması və Lələtəpənin alınması sayəsində ordumuz qələbəni bir qədər də yaxınlaşdırdı, 2018-ci ildə Şərurda Günnit əməliyyatı uğurla nəticələndi. 2020-ci ildə Tovuz döyüşləri qələbə əzmimizi daha da artırdı. Mübarizin mərd ardıcılları, qəhrəmanlıq məktəbinin davamçıları – Şükür Həmidovlar, Mayis Bərxudarovlar, Murad Mirzəyevlər, Pəncəli Teymurovlar, Rauf Orucovlar, Polad Həşimovlar, İlqar Mirzəyevlər, Anar Novruzovlar dilimizin əzbəri oldular. Daha sonra isə 44 günlük Zəfər yürüşü ilə işğalçı Ermənistan ordusunun beli qırıldı, əzəli torpaqlarımız düşməndən təmizləndi. Şanlı Qələbəmizin “qızıl təməl daşı” sayılan Mübarizin ruhu şad oldu.

...2017-ci ildə onun növbəti anım günündə bu sətirlərin müəllifi Biləsuvarda idi. İcra hakimiyyətində dedilər ki, Əliabad kəndinə – Mübarizgilə gedirik, sən də gəl. Həmin gün ilk dəfə qəhrəmanın doğulub-böyüdüyü kənddə, onun ata ocağında oldum. Bir daha xatırlandı ki, Mübariz Tərtər istiqamətində düşmənin işğalı altında olan əraziyə girərək əsl cəngavər kimi 5 saat təkbaşına döyüşüb. Ermənilər əvvəlcə elə zənn ediblər ki, onlara qarşı böyük bir qoşun hücuma keçib. Gecənin qaranlığında çaşbaş qalan düşmən çoxsaylı itkilər verib. Həmin amansız qarşıdurmada bir orduya əvəz olan Mübariz özünün təkbaşına mübarizəsi ilə Azərbaycan əsgərinin nəyə qadir olduğunu bütün dünyaya göstərib.

Biz Mübarizgildə ona məxsus müxtəlif şəkillər, əşyalar, haqqında yazılmış kitab, jurnal və qəzetlərdən ibarət zəngin guşə ilə tanış olduqca qəlbimiz iftixarla döyünürdü. Bunu görən anası Şamama xanım gözünün yaşını silir, atası Ağakərim kişi belini dikəldirdi.

Mübariz İbrahimov 2005-ci ildə orta təhsilini başa vurduqdan sonra hərbi xidmətə çağrılıb. DİN-in xüsusi təyinatlı qüvvələrində qulluq edib. 2009-da könüllü xidmətə başlayıb. Həlledici döyüşdən əvvəl valideynlərinə məktub yazaraq, xidmət etdiyi bölmədə heç kimə xəbər vermədən təmas xəttinə doğru irəliləməyə başlayıb. Bilib ki, bu yolun geri qayıdışı yoxdur. Amma gözünü də qırpmayıb. Həmin döyüş zamanı İbrahimov kino qəhrəmanı Rembonun hünərini reallıqda gerçəkləşdirib. Müxtəlif mənbələrə görə, çoxlu sayda düşməni cəhənnəmə vasil edib. Özünün nəşi aylarla işğal altındakı ərazilərdə qalıb, lakin Ermənistan tərəfi bunu uzun müddət təkzib edib. Aylarla davam edən danışıqlardan sonra onun nəşi nəhayət ki, Azərbaycan tərəfinə təhvil verilib.

Biləsuvarda onun adına küçə və məktəb var. Həmin məktəbin həyətində əzəmətli abidəsi ucalır, dəfələrlə ziyarət edib baş əymişəm. Vətən müharibəsi zamanı – 4 oktyabr 2020-ci ildə Mübarizin şəhid olduğu yer Silahlı Qüvvələrimiz tərəfindən azad edilib və burada üçrəngli dövlət bayrağımız ucaldılıb. Həmin gün zəng edib gözaydınlığı verdiyim atası sevincindən ağlayıb.

O, məktəbdə keçirilən idman dərsləri ilə kifayətlənməyib rayona gedər, 12–13 yaşlarından boksla məşğul olardı. Ukraynada yaşıdları arasında keçiriləcək yarışlarda iştirak etmək üçün yoladüşmə ərəfəsində əli zədələndiyindən həmin yarışlarda iştirak edə bilməmişdi. Amma Qarabağda son döyüşü zamanı onun əli qətiyyən əsməyib, sərrast atəşlərlə ermənilərə “ölüm atəşfəşanlığı” bəxş edib. Qəhrəmanlıq tarixi yazıb.

Adı bizim Qarabağı tezliklə almaq inamımızı gücləndirən ilklərdən olan Mübariz İbrahimov hər bir azərbaycanlının ürəyində özünə uca taxt-tac qurub.

***Əli NƏCƏFXANLI,***
***“Xalq qəzeti”***